# Xəzər rayonunda ilin birinci yarısının yekununa həsr olunmuş konfrans

30 iyul 2015-ci ildə Xəzər rayonunda 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat yığıncağı keçirilmişdir. Hesabat iclasında Xəzər Rayon İcra Hakimiyyəti başçısı Gülağa İslamov, Milli Məclisin üzvü Rauf Əliyev, Xəzər İnkişaf Fondunun sədri Elmar Mədətov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, hüquq-mühafizə orqanlarının, müxtəlif idarə və müəssisələrin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. **Xəzər Rayon İcra Hakimiyyəti başçısı Gülağa İslamov** iclası giriş sözü ilə açaraq bildirmişdir ki, iyul ayının 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əlivevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda cənab Prezident giriş nitqilə çıxış edərək ölkə həyatının bütün sahələrində görülən işlərin aydın mənzərəsini yaratmış və qarşıda duran həlli vacib məsələləri müəyyənləşdirmişdir. Gülağa İslamov qeyd etdmişdir ki, hesabat dövründə bütün respublikada olduğu kimi, Xəzər rayonunun sosial-iqtisadi sahələrində də dinamik inkişaf davam etmiş, əsas göstəricilər üzrə müsbət nəticələr əldə edilmişdir.



Sonra Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Balayev rayonun 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında məruzə ilə çıxış etdi. A.Balayev çıxışında bildirdi ki, 2015-ci ilin birinci yarısında rayonun sosial-iqtisadi göstəriciləri də müsbət olmuş, Dövlət proqramları çərçivəsində və müxtəlif maliyyə mənbələri hesabına yeni infrastruktur layihələrin həyata keçirilməsi, daxili yolların inşası, əhalinin elektrik enerjisi, təbii qaz və su təchizatının yaxşılaşdırılması, mənzil fondunun saxlanılması, sosial əhəmiyyətli obyektlərin tikintisi, yaşayış məntəqələri və küçələrin abadlaşdırılması üzrə xeyli işlər görülüb.

Qala-Şüvəlan yolayrıcında müasir memarlıq üslubunda monument tikilərək istifadəyə verilmişdir. Ərazidə əlavə olaraq 1000 kvadratmetr qazon salınmış, 300 ədəd ağac əkilmiş, suvarma məqsədilə su xətti çəkilmiş və işıqlandırma sistemi quraşdırılmışdır.

Hazırda Şüvəlan qəsəbəsinin mərkəzi Almaz İldırım və Mərdəkan qəsəbəsinin Yesenin küçələrinin yenidən qurulması, o cümlədən divarlara aqlay daşının vurulması, səkilərin müasir üslubda yenidən qurulması, yolboyu milli və tarixi elementlər nəzərə alınmaqla qədim tikililərin bərpası istiqamətində işlər davam etdirilir.

Yaşıllıqların salınması ilə əlaqədar 2015-ci ilin 1-ci yarımilində rayon ərazisində idarə, müəssisə və təşkilatların iştirakı ilə 16 min 734 ağac əkilmişdir. İDEYA İctimai Birliyinin təşəbbüsü ilə 1-ci "Ümumrespublika yaşıllaşdırma marafonu" çərçivəsində təkcə mart-aprel aylarında rayon ərazisində min ağac əkilmişdir.

Hesabat dövründə asfalt yolların əsaslı və cari təmiri istiqamətində Mərdəkan, Şüvəlan, Şağan və Binə qəsəbələrində cəmi 11 min 900 kvadratmetr yeni asfalt örtüyü salınmışdır.

Xəzər Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi tərəfindən 2015-ci ilin 1-ci yarımili ərzində 61 min 296 kubmetr məişət və digər növ tullantılar, əhalinin su təminatını ödəmək məqsədilə maşınlarla 18 min 164 ton içməli su daşınmışdır.

Qaz təchizatı ilə bağlı hesabat dövründə rayonun Qaz İstismar Sahəsi tərəfindən əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində Buzovna qəsəbəsində 2885, Binə qəsəbəsində 1200, Qala qəsəbəsində 6031, Şüvəlan qəsəbəsində 3159, Mərdəkan qəsəbəsində 3977 paqonmetr olmaqla cəmi rayon üzrə 17 min 512 paqonmetr qaz xətti çəkilmiş və dəyişdirilmişdir.

Rayonda əhali tərəfindən istifadə olunan təbii qazın ödənişi 101,6 faiz, abonentlərin ödənişdə iştirakı isə 64 faiz olmuşdur.

Elektrik enerjisi təchizatı sahəsində rayonun Enerji Təchizatı və Satış İdarəsi tərəfindən əhalinin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə rayon ərazisində 3 ədəd yeni transformator məntəqəsi quraşdırılmış və 9 ədəd güc transformatoru, 11 ədəd KTM dəyişdirilmiş, 565 ədəd 17M və KTM təmizlənib və cari təmir olunub, 6509 metr kabel, 2011 metr naqil çəkilib və dəyişdirilmişdir.

Hesabat dövründə əhali tərəfindən elektrik enerjisinin dəyərinin ödənilməsi 100,4 faiz, abonentlərin ödənişdə iştirakı 66 faiz, sayğaclaşma isə 99 faiz təşkil etmişdir.

Su və kanalizasiya sahəsi üzrə hesabat dövründə Xəzər su-kanal idarəsi tərəfindən ümumilikdə müxtəlif ölçülü 614 paqonmetr istismara yararsız su boruları dəyişdirilmiş, 4260 paqonmetr su xətti çəkilmiş, 663 ədəd smart tipli sayğac quraşdırılmışdır. Əhalinin su təminatını yaxşılaşdırmaq məqsədilə 43 ədəd su nasosu təmir edilmişdir.

Dövlət Proqramı çərçivəsində rayon ərazisində 30740 paqonmetr müxtəlif diametrli su xətti çəkilmiş, 623 ev birləşməsi verilmiş, 109 sayğac quraşdırılmışdır.

Hesabat dövründə Heydər Əliyev Fondu və Dövət Proqramı çərçivəsində təhsil sahəsi üzrə Şüvəlan qəsəbəsində 2 saylı internat məktəbinin və Zirə Mədəniyyət Mərkəzinin tikintisi başa çatdırılmış, 4 saylı internat məktəbinin, Qala qəsəbəsində GENS dünya akademiyasının, Mərdəkan qəsəbəsində Sərhəd xidmətinin xüsusi məktəbinin yeni korpusunun, Buzovna qəsəbəsi Albalılıq yaşayış sahəsində, Mərdəkan qəsəbəsində və Binə qəsəbəsində uşaq bağçalarının tikintisi davam etdirilir. Səhiyyə sahəsi üzrə Buzovna qəsəbəsində Uşaq Reabilitasiya Mərkəzinin, 7 nömrəli Vərəm Xəstəxanasının, Gindes adına Uşaq və yeniyetmələr üçün sümük-vərəm xəstəlikləri sanatoriyasının tikintisi davam etdirilir.

Mədəniyyət, gənclər və idman sahələri üzrə Türkan, Mərdəkan, Qala və Buzovna qəsəbələrində idman mərkəzlərinin və Şağan qəsəbəsində Mədəniyyət evinin tikintisi hazırda davam etdirilir.

Hesabat dövründə digər sahələr üzrə Mərdəkan qəsəbəsində Müalicə Pansionatının və Şağan qəsəbəsində Müharibə əlilləri üçün müalicə pansionatının əsaslı təmiri, Şüvəlan qəsəbəsində Şimal DRES-in ikinci blokunun, Zirə qəsəbəsində B.Sərdarov adına zavodun filialının və İmam Rza məscidinin tikintisi davam etdirilir, Buzovna qəsəbəsində Yanğın mühafizə bölməsinin tikintisi tamamlanmaq üzrədir.

Novruz bayramı münasibətilə Zirə qəsəbə parkında bayram şənliyi təşkil edilmiş, 600 nəfər iştirakçı üçün bayram süfrəsi açılmışdır. Bayram konserti və tonqal ətrafında şənlik təşkil olunmuş, xalqımızın qədim və zəngin adət-ənənələrini özündə əsk etdirən tamaşalar göstərilmiş, Heydər Əliyev Fondu tərəfindən şəhid, əlil və digər aztəminatlı ailələrə ərzaq yardımı paylanılmışdır. Tədbir İctimai Televiziya vasitəsilə geniş işıqlandırılmışdır.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbirlər planına müvafiq olaraq Heydər Əliyev adına parkda Gül bayramı təşkil olunmuş, rayonun idarə, müəssisə, təkilatları, o cümlədən məktəbləri, yaradıcılıq mərkəzləri, uşaq bağçaları və ayrı-ayrı yaradıcı şəxslər tərəfindən müxtəlif kompozisiyalar nümayiş etdirilmişdir. Tədbirdə respublikanın tanınmış sənət adamları rayon ictimaiyyətinin nümayəndələri qarşısında maraqlı konsert proqramı ilə çıxış etmişlər.

Hesabat dövründə Xəzər Rayon İcra Hakimiyyəti başçısının qəbulunda 145 nəfər vətəndaş olmuşdur. Ötən dövrdə vətəndaşların icra hakimiyyətində qəbul edilməsinin və müraciətlərinə baxılmasının bir qismi elektron formada həyata keçirilmişdir.

2015-ci ilin 1-ci yarımilində RİH başçısı tərəfindən qəsəbələrdə 12 səyyar qəbulda 1184 nəfər iştirak etmiş, 45 müraciət səslənmişdir.

Daha sonra məruzə ətrafında millət vəkili Rauf Əliyev, rayon Statistika İdarəsinin rəisi Təranə Babayeva, Xəzər Rayon Dövlət Sosial Müdafiə Fondunun rəisi Şakir Nuriyev və Tağıyev adına NQÇİ-nin rəisi Salman Əliyev çıxış etmişlər.

Tədbirin sonunda Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Dövlət qulluğunda göstərdiyi səmərəli fəaliyyətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunan rayon icra hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin əməkdaşı Elxan Axundovu təbrik edərək, medalı ona təqdim etmişdir.

**Kamal İBADOV,**
**"Respublika".**